*ASC «Xalq» Bankı tərəfindən təqdim edilən bank (maliyyə) xidmətləri ilə bağlı suallar yarandıqda, həmin xidmətlərdən istifadə zamanı sizin istehlakçı hüquqlarınız pozulduqda, o cümlədən qarşılaşdığınız hər hansı digər çətinliklər barədə (+99412) 966 qaynar xətti və ya (+99412) 493 50 58 telefon nömrəsi vasitəsilə Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət edə bilərsiniz.*

**ASC "Xalq" Bankının ödəniş kart(lar)ının buraxılması və on(lar)a xidmət göstərilməsi haqqında**
**Müqavilə**

Bundan sonra birlikdə "Tərəflər" və ya müvafiq olaraq "Tərəf" adlandırılacaq, Azərbaycan Respublikasının qanunvericiliyinə görə hüquqi şəxs olan Açıq Səhmdar Cəmiyyəti "Xalq" Bankı (Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən verilmiş 27 dekabr 2004-cü il tarixli 246 saylı Bank fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş Bank lisenziyası, hüquqi ünvan: Azərbaycan Respublikası, AZ 1065, Bakı şəhəri, İnşaatçılar prospekti 22L, məhəllə 494, bundan sonra "Bank" adlandırılacaq) bir tərəfdən və Kart saxlayıcısı (bundan sonra "Kart saxlayıcısı" adlandırılacaq) digər tərəfdən aşağıdakılar barəsində bu Müqaviləni (bundan sonra "Müqavilə" adlandırılacaq) bağladılar:

**1. Müqavilədə istifadə olunan terminlər.**

1.1. Bu Müqavilədə aşağıdakı terminlərdən və onların təriflərindən istifadə olunur, bu zaman Müqavilənin hazırkı bəndində göstərilməmiş termin və onların tərifləri Müqavilənin 3 №-li Əlavəsi olan ASC "Xalq" Bankının beynəlxalq kartlarının buraxılması və onlardan istifadə edilməsi Qaydalarında və bu Müqavilənin digər əlavələrində nəzərdə tutulmuşdur:
1.1.1. **bankomat** – Kart saxlayıcısına nağd vəsaitləri almaq və/və ya qəbul etmək, habelə pul vəsaitlərinin köçürülməsi üzrə ödəniş sərəncamlarının Banka verilməsi imkanını təmin edən elektron-mexaniki qurğu;
1.1.2. **benefisiar mülkiyyətçi** - son nəticədə Kart saxlayıcısına nəzarəti həyata keçirən və (və ya) xeyrinə əməliyyat aparılan və (və ya) əqdlər bağlanılan fiziki şəxs (şəxslər);
1.1.3. **Çağrı mərkəzi** – Bankın struktur bölməsidir ki, burada Kart saxlayıcısına, onun Bankın əməkdaşı tərəfindən telefon əlaqəsi vasitəsilə uğurlu eyniləşdirilməsindən sonra Kart saxlayıcısının Bankın Ödəniş kartlarından istifadə etməsi ilə bağlı bəzi xidmətlər məsafədən göstərilə bilər. Həmin xidmətlərin siyahısı Bankın daxili normativ aktları ilə müəyyən edilir;
1.1.4. **ƏL/TMM qanunvericiliyi** anlayışı altında bu Müqavilənin məqsədləri üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra – "ƏL/TMM" qanunu) və bu qanuna müvafiq olaraq və onun icrasını təmin etmək məqsədilə qəbul edilmiş digər normativ-hüquqi və normativ xarakterli aktlar, o cümlədən yuxarıda qeyd edilmiş normativ-hüquqi və normativ xarakterli aktların tələblərinin icrasını təmin etmək məqsədilə Bankın qəbul etdiyi daxili normativ aktları başa düşülür;
1.1.5. **Ərizənin aksept edilməsi** – Bank tərəfindən Kart saxlayıcısının Ərizəsinin Bankın səlahiyyətli şəxsi tərəfindən imzalanması yolu ilə təmin edilməsi. Ərizə Kart saxlayıcısı tərəfindən Banka Müqavilənin bağlanması üçün təqdim edildikdə Tərəflər Bank tərəfindən Ərizənin aksept edilməsi ilə Müqavilənin bağlanmış olduğunu qəbul edirlər;
1.1.6. **"XalqOnline" internet/mobil bankinq tətbiqi** – Kart saxlayıcısı və Bank arasında internet şəbəkəsi vasitəsilə elektron sənədlərin və məlumatların mübadiləsini təmin edən məsafədən bank xidmətlərinin göstərilməsi sistemi;
1.1.7. **Kart əsaslı ödəniş aləti** - Kart saxlayıcısına Kartdan istifadə etməklə əməliyyatların aparılmasına imkan verən ödəniş aləti, o cümlədən ödəniş tətbiqi yüklənmiş ödəniş vasitəsi (mobil telefon və ya digər qurğu);
1.1.8. **Qoşulma və/və ya Ödəniş kartının buraxılması haqqında Ərizə** ("**Ərizə**") - Kart Hesabının açılması və/və ya Ödəniş kartının buraxılması üçün Bank tərəfindən müəyyən edilmiş formada təqdim edilmiş və müvafiq olaraq Kart saxlayıcısının Bankın elan etdiyi şərtlərlə Bankla Müqavilə bağlamaq razılığı (təklifi) və ya Ödəniş kartının buraxılması haqqında Banka müraciəti;
1.1.9. **ödəniş sərəncamı** ("**sərəncam**") – Ödəniş kartından (onun rekvizitlərindən) istifadə etməklə elektron qaydada tərtib edilmiş KH üzrə Əməliyyatın aparılması barədə sərəncam;
1.1.10. **ödəniş tətbiqi** – təchizatçı ilə Kart saxlayıcısı arasında bağlanmış ayrıca saziş (müqavilə) əsasında təchizatçı tərəfindən Kart saxlayıcısına təqdim edilən və onun mobil qurğusunda (smartfon, smart saat, planşet və s.) tətbiq kimi yüklənmiş təchizatçının proqram təminatı. Bu proqram təminatı vasitəsilə Ödəniş kartının Tokenini yaratmaq və ödəniş tətbiqinin yaddaşına onu yazmaq, Tokeni ləğv etmək, Əməliyyatların aparılması üçün Tokendən istifadə etmək mümkündür;
1.1.11. **POS-terminal** –Ödəniş kartından və Bankın informasiya sisteminə qoşulmadan istifadə etməklə vasitəsilə TXM-lərdə mallara (iş və xidmətlərə) görə ödənişlərin həyata keçirildiyi, habelə Nağd vəsaitlərin verilməsi məntəqələrində nağd vəsaitlərin verildiyi elektron, elektron-mexaniki qurğu;
1.1.12. **Push mesaj** – Bank tərəfindən Kart saxlayıcısının mobil qurğusuna, həmin qurğuya yüklənmiş Bankın internet/mobil bankinq tətbiqi vasitəsilə göndərilən qısa mesaj;
1.1.13. **Token** - Kart saxlayıcısı tərəfindən Apple Pay / Google Pay ödəniş tətbiqində ASC "Xalq" Bankının bank kartlarından istifadə qaydaları ilə nəzərdə tutulmuş qaydada müvafiq ödəniş tətbiqində Ödəniş kartının qeydiyyata alınmasından sonra Ödəniş sistemi tərəfindən yaradılan və Kart saxlayıcısının mobil qurğusuna yüklənmiş müvafiq ödəniş tətbiqində şifrələnmiş formada saxlanılan Kartın rekvizitlərinin rəqəmsal təsviri. Tokendən istifadə etməklə aparılmış əməliyyatlar Kart saxlayıcısı tərəfindən Kartdan istifadə etməklə aparılmış əməliyyatlara bərabər tutulur.

**2. Müqavilənin predmeti**

2.1. Bu Müqavilənin predmetini Bank tərəfindən Kart saxlayıcısına, onun Qoşulma və/və ya Ödəniş kartının buraxılması haqqında Ərizəsində (Əlavə № 1) göstərilən valyutada KH-nın açılması, Ödəniş kartının buraxılması və Ödəniş kartının qüvvədə olduğu muddətdə ondan istifadə etməklə KH üzrə əməliyyatlara dair hesablaşmaların aparılması üzrə bu Müqavilədə və onun ayrılmaz tərkib hissəsi olan Əlavələrdə nəzərdə tutulmuş şərtlərlə xidmətlərin göstərilməsi, habelə Tərəflərin hüquq və vəzifələrinin, məsuliyyətinin və Tərəflər arasında Müqavilənin bağlanmasından irəli gələn hüquq münasibətlərinin digər xüsusiyyətlərinin müəyyən edilməsi təşkil edir.

Müqavilə Kart saxlayıcısının həm birinci, həm də sonrakı Qoşulma və/və ya Ödəniş kartının buraxılması haqqında Ərizələri əsasında Bank tərəfindən Kart saxlayıcısına Müqavilədə nəzərdə tutulmuş bir və ya bir neçə valyutalarda bir və ya bir neçə KH-nın açılması, Müqavilədə nəzərdə tutulmuş müxtəlif növ Bank kartlarının buraxılması imkanını, habelə onlara xidmət göstərilməsi şərtlərini nəzərdə tutan kompleks müqaviləsidir.
2.2. Bu Müqavilənin şərtləri Bank tərəfindən standart formada müəyyən edilir və Qoşulma və/və ya Ödəniş kartının buraxılması haqqında Ərizəni Banka təqdim etmək yolu ilə Kart saxlayıcısı tərəfindən bütövlükdə qəbul edilə bilər. Bu zaman Qoşulma və/və ya Ödəniş kartının buraxılması haqqında Ərizə və Müqavilə yalnız vahid sənəd kimi hesab oluna bilər.

Bu Müqavilənin mətni Bankın internet şəbəkəsində olan www.xalqbank.az saytında yerləşdirilməklə Kart saxlayıcısına təqdim edilir.
2.3. Bank tərəfindən KH-nın açılması və Ödəniş kartının buraxılması imkanının müəyyən edilməsi üçün Kart saxlayıcısı tərəfindən Banka kağız daşıyıcıda öz imzası ilə imzalanmış 2 (iki) nüsxədə Ərizə və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi və Bankın daxili normativ aktları ilə tələb olunan sənədlər və məlumatlar təqdim edilir.
2.4. Kart saxlayıcısı tərəfindən Banka Ərizənin təqdim edilməsi Kart saxlayıcısının Müqavilənin şərtləri və Tariflərlə razı olduğunu bildirir, lakin Bankla Müqavilənin avtomatik olaraq bağlanması və ya Bank üçün Ödəniş kartının buraxılması (Ödəniş kartının yenidən buraxılması halında) öhdəliyinin yaranması demək deyil.

Bankın Kart saxlayıcısına Müqaviləni bağlamaqdan imtina etdiyi hallar istisna olmaqla, Müqavilə Bank tərəfindən Kart saxlayıcısının, benefisiar mülkiyyətçisinin ƏL/TMM qanunvericiliyinin tələblərinə müvafiq olaraq eyniləşdirilməsi və verifikasiyasının aparılmasından və Ərizənin aksept edilməsindən sonra bağlanmış sayılır. Bu andan etibarən Kart saxlayıcısı Müqavilənin tərəfi olur. Bank tərəfindən Ərizənin aksept edilməsi üzrə qərar Bankın daxili normativ aktlarına müvafiq olaraq öz mülahizəsinə əsasən müstəqil şəkildə qəbul edilir.
2.5. Kart saxlayıcısına Bankla Kart saxlayıcısı arasında əvvəllər bağlanmış müqavilə (bu Müqavilə olmayan) əsasında buraxılmış Ödəniş kartı yenidən buraxıldıqda, Ərizəni imzalamaqla Kart saxlayıcısı Müqavilənin Bankla Kart saxlayıcısı arasında olan müvafiq Ödəniş sisteminin Ödəniş kartlarının buraxılması və onlara xidmət göstərilməsi haqqında digər müqavilələri əvəz etməsi və Müqavilənin şərtlərinin Tərəflər arasında müvafiq Ödəniş kartının ilkin buraxılması anından yaranmış KH-nın açılması və aparılması, habelə Ödəniş kartının buraxılması üzrə münasibətlərə şamil olunması ilə razılaşır.
2.6. Bununla Kart saxlayıcısı qeyd-şərtsiz və geri çağırılmayan şəkildə razılaşır ki, Kart saxlayıcısı tərəfindən imzalanmış və Bank tərəfindən aksept edilmiş Ərizənin Bankda mövcud olması Tərəflər arasında Müqavilənin bağlanması faktını və müvafiq KH-ya və Ödəniş kartına (o cümlədən yenidən buraxılmış Ödəniş kartına) münasibətdə Müqavilənin şərtlərinin Tərəflər üçün etibarlılığını təsdiq edən sübut hesab olunur. Bu sübut həmin Ödəniş kartından istifadə etməklə aparılmış istənilən əməliyyatlara şamil olunur.

2.7. Ödəniş kartlarının ayrı-ayrı növlərinin buraxılması və onlara xidmət göstərilməsi şərtlərinin, habelə Ödəniş kartları üzrə xidmət göstərilməsi çərçivəsində Bank tərəfindən ayrı-ayrı xidmətlərin göstərilməsi xüsusiyyətləri bu Müqaviləyə olan Əlavələrlə və Bankın daxili normativ aktları ilə tənzimlənir.
2.8. Ödəniş kartının fəaliyyətinə, onun üz tərəfində göstərilmiş müvafiq ilin müvafiq ayının sonuncu gününün bitməsi ilə avtomatik olaraq xitam verilir.
2.9. Ödəniş kartından istifadə Azərbaycan Respublikasının qanunvericiliyi, Mərkəzi Bankın normativ xarakterli aktları, beynəlxalq ödəniş sistemlərinin normativ aktları, hazırkı Müqavilə və onun ayrılmaz tərkib hissəsi sayılan müvafiq Əlavələrlə, o cümlədən Bankın internet şəbəkəsində olan www.xalqbank.az saytında yerləşdirilmiş "ASC "Xalq" Bankının beynəlxalq kartlarının buraxılması və onlardan istifadə edilməsi Qaydaları" (bu Müqaviləyə Əlavə № 3, bundan sonra – "Qaydalar" adlandırılacaq) və Bankın daxili normativ aktları ilə tənzimlənir.
2.10. Ödəniş kartları üzrə Tokenlərdən istifadə etmək üçün Kart saxlayıcısı bu Müqavilə ilə yanaşı Apple Pay / Google Pay ödəniş tətbiqində ASC "Xalq" Bankının bank kartlarından istifadə qaydaları ilə nəzərdə tutulmuş qaydada Bankla müvafiq ödəniş tətbiqindən istifadə haqqında müqaviləni bağlamalıdır.
2.11. Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli 1390-IVQ №-li Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə» Sazişin tələblərinə əsasən Bankın hesabat verən maliyyə institutu kimi ABŞ-ın vergi mükəlləfiyyətli hüquqi və fiziki şəxsləri, habelə iştirakçı olmayan maliyyə institutları barədə həmin Sazişlə nəzərdə tutulmuş məlumatları Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti vasitəsilə ABŞ-ın səlahiyyətli dövlət orqanına ötürmək öhdəliyini daşıdığını nəzərə alaraq, Kart saxlayıcısı ona açılan KH-nın ABŞ-ın hesabat verilməli hesabı olub-olmadığının müəyyənləşdirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş formada «Özünüqiymətləndirmə anketi»ni (bundan sonra «Anket» adlandırılacaq) və Anketin cavablandırılmasından (Kart saxlayıcısının ABŞ şəxsi olub-olmamasından) asılı olaraq W-9 və ya IRS W-8 BEN formasını doldurmaqla Banka təqdim edir. Kart saxlayıcısı Anket, W-9 və IRS W-8 BEN formaları ilə Bankın internet şəbəkəsində olan www.xalqbank.az saytında tanış ola bilər.

Bu bəndin birinci abzasında göstərilən Anketdən həmçinin «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma» (bundan sonra «Çoxtərəfli Razılaşma») çərçivəsində tətbiq edilən Ümumi Hesabatlılıq Standartına (Common Reporting Standard – CRS) uyğun məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə istifadə olunur.

## 3. Tərəflərin hüquq və vəzifələri

**3.1. Bank aşağıdakıları öz öhdəsinə götürür:**
3.1.1. Kart saxlayıcısı tərəfindən bu Müqavilənin 3.4.1-ci, 3.4.2-ci bəndlərinin müddəalarının yerinə yetirilməsi, Bank tərəfindən isə Ərizənin aksept edilməsi şərtilə Kart saxlayıcısına KH-nı açmaq və/və ya Kart saxlayıcısı tərəfindən Bankın Tarifləri (Əlavə № 4) ilə nəzərdə tutulduğu halda müvafiq məbləğlərin (bank komissiyaları, KH-yə ilkin mədaxil məbləği, sığorta məbləği) ödənilməsi anından 3 (üç) bank günü müddətində Ödəniş kartını və ŞEN-kodla zərfi (Kart saxlayıcısının istəyinə uyğun olaraq ŞEN-kod zərfdə çap edildikdə) Kart saxlayıcısına təhvil vermək. Kart saxlayıcısına KH açıldığı tarixdən növbəti 2 (iki) iş günündən gec olmayaraq Bank KH-nın rekvizitlərini əks etdirən bildirişi Kart saxlayıcısına təqdim edir və ya onun Ərizədə göstərdiyi elektron poçt ünvanına göndərir. Ödəniş kartı və ŞEN-kodla zərf (Kart saxlayıcısının istəyinə uyğun olaraq ŞEN-kod zərfdə çap edildikdə) Kart saxlayıcısına şəxsiyyəti təsdiq edən sənəd əsasında, Kart saxlayıcısının nümayəndəsinə isə əlavə olaraq Kart saxlayıcısı tərəfindən nümayəndəsinin adına Bankın daxili normativ aktlarının tələblərinə müvafiq olaraq tərtib edilmiş etibarnamə əsasında Bank tərəfindən təqdim edilir. Bu zaman Kartın və ŞEN-kodla zərfin (Kart saxlayıcısının istəyinə uyğun olaraq ŞEN-kod zərfdə çap edildikdə) alınması Kartı təhvil alan şəxs tərəfindən Kartın təhvil verilməsinə dair sənəddə qol çəkməklə təsdiq edilir;
3.1.2. Bank tərəfindən Kart saxlayıcısına Ödəniş kartının verilməsindən imtina edildikdə, Bankın Tariflərinə müvafiq olaraq Kart saxlayıcısından tutulmuş məbləğləri (Ödəniş kartının əldə olunmasına görə xidmət haqqını, KH-ya ilkin haqqın məbləğini, sığorta məbləğini) sonuncuya nağd qaydada və ya onun şəxsi hesabına köçürmə yolu ilə qaytarmaq;
3.1.3. Ödəniş kartından istifadə ilə bağlı KH üzrə əməliyyatları Kart saxlayıcısının hesabında olan pul vəsaiti həddində həyata keçirmək. Kart saxlayıcısı tərəfindən aparılan əməliyyatlar üzrə mühasibat uçotunu aparmaq;
3.1.4. Bu Müqavilə ilə nəzərdə tutulmuş qaydada Ödəniş kartından istifadə etməklə aparılmış əməliyyatlar barədə Kart saxlayıcısının məlumatlandırılmasını təmin etmək, habelə sonuncuya müvafiq sənəd və məlumatları təqdim etmək;
3.1.5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, bu Müqavilənin bağlanması və icrası zamanı Bank tərəfindən əldə edilmiş fərdi məlumatlara dair konfidensiallıq rejiminə riayət etmək;
3.1.6. Kart saxlayıcısının hesabları, Ödəniş kartlarından istifadə ilə bağlı əməliyyatlar və Kart saxlayıcısı barədə məlumatlar üzrə bank sirrini qorumaq və onlar barədə üçüncü şəxslərə məlumatları yalnız qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada təqdim etmək;
3.1.7. Ödəniş kartı və ya Kart əsaslı ödəniş aləti itirildikdə, oğurlandıqda, onlardan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə olunduqda, Kart məhv olduqda və ya zədələndikdə və bu Müqavilə ilə nəzərdə tutulmuş digər hallarda Kart saxlayıcısının Bank tərəfindən aksept edilmiş yazılı ərizəsi əsasında 3 (üç) bank günü müddətində Kart saxlayıcısına yeni Ödəniş kartının verilməsini təmin etmək;
3.1.8. Kart saxlayıcısından Qaydalarla nəzərdə tutulmuş üsullardan hər-hansı biri ilə Ödəniş kartının və ya Kart əsaslı ödəniş alətinin itirilməsi, oğurlanması və ya onlardan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə olunması haqqında xəbərdarlığı aldığı andan Ödəniş kartını bloklaşdırmaq;
3.1.9. Kart saxlayıcısından bu Müqavilə üzrə daxil olmuş şikayətlərə, şikayətin daxil olduğu tarixdən 7 (yeddi) iş günü müddətində baxmaq və baxılmanın nəticələri barədə sonuncunu yazılı şəkildə məlumatlandırmaq. Şikayətə baxılması bu müddətdə mümkün olmadıqda həmin müddətdən gec olmayaraq şikayətə baxılması müddətinin artırılmasının səbəblərini əsaslandırmaqla şikayətə baxılması müddəti barədə Kart saxlayıcısını yazılı şəkildə məlumatlandırmaq;
3.1.10. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda Kart saxlayıcısının razılığı olmadan aparılmış (avtorizə etmədiyi) Əməliyyatın məbləğini Kart saxlayıcısına qaytarmaq bu şərtlə ki, Kart saxlayıcısı bu Əməliyyat barədə Banka qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş məlumat verilməsi qaydasına riayət etmiş olsun, Bank isə qüvvədə olan qanunvericiliklə tələb olunan Bankın bu Əməliyyatın baş verməsində təqsirinin olmadığını təsdiq edən sübutları təqdim edə bilməsin.
3.1.11. Bu Müqavilənin ləğv edilməsi və/və ya Ödəniş kartının fəaliyyətinə xitam verilməsi halında, 4.18-ci bəndi ilə nəzərdə tutulmuş müddətdə və qaydada KH-da olan vəsaitin qalığını, habelə cari hesabında olan sığorta məbləğini (Bankın Tarifləri ilə nəzərdə tutulduğu halda) Kart saxlayıcısına qaytarmaq;
3.1.12. Kart saxlayıcısına xidmət göstərən Bankın mütəxəssisi vasitəsilə bu Müqavilənin 3.4.2-ci yarımbəndində göstərilən sənədlərin doldurulma qaydasını Kart saxlayıcısına tam və aydın şəkildə izah etmək, eləcə də zəruri olduğu hallarda sənədlərin doldurulmasında sonuncuya köməklik göstərmək.

**3.2. Bank aşağıdakı hüquqlara malikdir:**
3.2.1. Bu Müqavilənin bağlanmasından, habelə Kart saxlayıcısına/Əlavə kart saxlayıcısına Kartın/Əlavə kartın buraxılmasından, təqdim edilməsindən, fəaliyyətinin bərpasından, yenidən buraxılmasından öz mülahizəsinə görə və səbəblərini izah etmədən imtina etmək;
3.2.2. Ödəniş kartının buraxılması üzrə bütün zəruri hərəkətləri yalnız Kart saxlayıcısı tərəfindən Bankın Tariflərinə müvafiq olaraq Ödəniş kartının əldə olunmasına görə xidmət haqqının və ya Kart üzrə KH-yə ilkin mədaxil məbləğinin ödənilməsindən sonra həyata keçirmək;
3.2.3. Kart saxlayıcısının KH-sından akseptsiz qaydada (Kart saxlayıcısının sərəncamı olmadan) aşağıdakı məbləğləri silmək:
– Ödəniş kartından istifadə etməklə aparılmış əməliyyatların, o cümlədən üçüncü şəxslər tərəfindən aparılmış əməliyyatların məbləğlərini;
– Bankın Tariflərinə müvafiq olaraq bank komissiyalarını, dəbbə pulu məbləğlərini, digər banklar və Ödəniş sistemləri tərəfindən müəyyən edilmiş komissiyaların məbləğlərini;
– Kartdan istifadə etməklə əməliyyatların aparılması zamanı qüvvədə olan qanunvericiliyə müvafiq olaraq tutulan vergilərin və digər məcburi ödənişlərin məbləğlərini;
– həm Kart saxlayıcısı, həm də üçüncü şəxslər tərəfindən Ödəniş kartından qeyri-qanuni yolla istifadənin qarşısının alınması, Ödəniş kartının bloklaşdırılması və ləğv edilməsi üzrə Bank tərəfindən faktiki olaraq çəkilmiş xərclərin məbləğlərini;
– Bankın Karta xidmət göstərilməsi ilə bağlı çəkdiyi digər bütün xərclərinin məbləğlərini;
– KH-ya səhvən mədaxil edilmiş məbləğləri.
3.2.4. Kart saxlayıcısının Bankda açılmış hesablarından (əmanətlərindən) Kart saxlayıcısının hər-hansı borc məbləğini, o cümlədən, texniki overdraft məbləğini, bank komissiyaların, dəbbə pulunun və Bankın bu Müqavilə üzrə Kart saxlayıcısına göstərilən xidmətlərə görə çəkdiyi digər xərclərin məbləğlərini akseptsiz qaydada silmək;
3.2.5. Kart saxlayıcısının KH-sı üzrə pul vəsaitlərin mədaxil/məxaric Əməliyyatlarını aşağıdakı hallarda həyata keçirməmək (onların aparılmasından imtina etmək):

- məxaric Əməliyyatının məbləği Kart saxlayıcısının KH-sında olan vəsaitlərinin qalığını üstələdikdə;

- məxaric və ya mədaxil Əməliyyatı Kart saxlayıcısının KH-sı üzrə məxaric və ya mədaxil əməliyyatlarının növlərinə bu Müqavilə ilə qoyulmuş məhdudiyyətləri pozduqda;

- Ödəniş kartı bloklaşdırıldıqda, ləğv edildikdə və ya onun qüvvədə olma müddəti bitdikdə;

- Bank tərəfindən Əməliyyatın Kart saxlayıcısının sahibkarlıq fəaliyyəti ilə əlaqədar olması müəyyən edildikdə (KH-nın sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə fərdi sahibkar üçün açıldığı hal istisna olmaqla);

- KH-nın sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə fərdi sahibkar üçün açıldığı halda Bank tərəfindən Əməliyyatın fərdi sahibkarın sahibkarlıq fəaliyyəti ilə əlaqədar olmaması müəyyən edildikdə;

- Əməliyyat Azərbaycan Respublikasının və ya ərazisində yerləşən xarici müxbir banklarda Bank tərəfindən xarici valyutada hesab açıldığına görə müvafiq xarici dövlətlərin Banka tətbiq edilən qanunvericiliyinə, yaxud beynəlxalq hüququn normalarına zidd olduqda və ya Əməliyyatda iştirak edən və ya Əməliyyatdan faydalanan şəxs "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunu ilə nəzərdə tutulmuş beynəlxalq sanksiyaların və ya xarici dövlətlərin sanksiyalarının tətbiq edildiyi şəxslərin siyahısına daxil edildikdə;

- KH-ya mədaxil edilən, yaxud KH-da mövcud olan vəsaitlərin mənbəyi barədə təqdim olunan məlumat və/və ya sənədlərin həqiqiliyinə və ya doğruluğuna dair şübhələr yarandıqda;

- Azərbaycan Respublikasının qanunvericiliyi və bu Müqavilə ilə nəzərdə tutulmuş digər hallarda;

3.2.6. Bu Müqavilənin 4.8-ci bəndi ilə nəzərdə tutulmuş limitləri Kart saxlayıcısının yazılı müraciəti əsasında artırmaq, ləğv etmək və ya onların artırılmasından, ləğv edilməsindən imtina etmək;

3.2.7. Bank üçün zərər vura biləcək şərait, o cümlədən, lakin bununla məhdudlaşmayaraq, manatın məzənnəsinin qeyri-sabit olması ilə bağlı şərait yarandıqda və ya Əməliyyatın aparılması nəticəsində belə şəraitin yaranma ehtimalı Bankın mülahizəsinə görə yüksək olduqda KH üzrə Kartdan istifadə etməklə əməliyyatları tam və ya qismən dayandırmaq, habelə Kart saxlayıcısına həmin Əməliyyatların aparılmasından imtina etmək;

3.2.8. Kart saxlayıcısı tərəfindən bu Müqavilənin şərtləri yerinə yetirilmədikdə, ƏL/TMM qanunvericiliyinin tələblərinə müvafiq olaraq Kart saxlayıcısı/Əlavə kart saxlayıcısı tərəfindən təqdim edilmiş məlumatların və sənədlərin həqiqiliyinin yoxlanılması mümkün olmadıqda və ya Kart saxlayıcısı/Əlavə kart saxlayıcısı bu Müqavilənin 3.2.12.-ci bəndinə müvafiq olaraq Bank tərəfindən ondan tələb edilmiş müvafiq məlumatları və/və ya sənədləri Banka təqdim etmədikdə, Kart saxlayıcısı/Əlavə kart saxlayıcısı "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunu ilə nəzərdə tutulmuş beynəlxalq sanksiyaların və ya xarici dövlətlərin sanksiyalarının tətbiq edildiyi şəxslərin siyahısına düşdükdə bu Müqavilənin icrasından birtərəfli qaydada tam və ya qismən imtina etmək və ya onun fəaliyyətini tam və ya qismən dayandırmaq, Bankın Tariflərinə müvafiq olaraq komissiyaları tutmaqla Ödəniş kartını bloklaşdırmaq, Kart saxlayıcısından Ödəniş kartını geri almaq və ya onu ləğv etmək;

3.2.9. Bu yarımbəndin ikinci abzasında nəzərdə tutulmuş hallar istisna olmaqla dəyişikliklərin, əlavələrin qüvvəyə minməsinə ən azı 30 (otuz) təqvim günü qalanadək müvafiq xəbərdarlığı Bankın ofisində (ofislərində) informasiya lövhələrində və ya Bankın WEB-səhifəsində yerləşdirməklə bu Müqaviləyə, onun Əlavələrinə, o cümlədən Qaydalara və Bankın Tariflərinə birtərəfli qaydada dəyişikliklər və əlavələr etmək.

Bank tərəfindən Bankın Tariflərində ödənişli xidmətlər siyahısından bəzi xidmətlərin çıxarılması, bu Müqavilə üzrə Kart saxlayıcısına göstərilən xidmətlər üzrə bank komissiyalarının aşağı salınması ilə bağlı, habelə bu yarımbəndin birinci abzasında göstərilən sənədlərə edilən və mövcud şərtlərlə müqayisədə Kart saxlayıcısı üçün daha əlverişli olan digər dəyişikliklər bu yarımbənddə nəzərdə tutulmuş xəbərdarlıq müddəti gözlənilmədən Bank tərəfindən tətbiq edilə bilər;

3.2.10. Kart saxlayıcısı tərəfindən Ödəniş kartı götürülmədikdə, onun hazırlanmasından 90 (doxsan) təqvim günü keçdikdən sonra Kartı ləğv etmək və KH-nı hesabın sahibi olan Kart saxlayıcısından əlavə ərizə almadan bağlamaq bu şərtlə ki, həmin KH üzrə buraxılmış və qüvvədə olan digər Əlavə kart(lar) mövcud olmasın. Bank tərəfindən Kart ləğv edildikdə, tutulmuş bank komissiyaların məbləğləri geri qaytarılmır;

3.2.11. Kart və ya Kart əsaslı ödəniş aləti itirildikdə, oğurlandıqda və ya onlardan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə olunması baş verdikdə, Kart saxlayıcısı Kartın və ya bu Karta bağlı olan Kart əsaslı ödəniş alətinin itirildiyini, oğurlandığını və ya onlardan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə olunmasını aşkar etdiyi andan həmin Kartı müstəqil şəkildə "XalqOnline" internet/mobil bankinq tətbiqində bloklaşdırdığı ana və ya Banka bu barədə Kart saxlayıcısı tərəfindən Qaydalarla nəzərdə tutulmuş üsullardan hər-hansı biri ilə məlumatın verilməsi anına qədər keçən vaxt dövrü ərzində aparılmış əməliyyatlar üzrə KH-dan pul vəsaitini silmək;

3.2.12. KH-nın açılması və Ödəniş kartının buraxılması üçün bu Müqavilənin 2.3-cü bəndində nəzərdə tutulmuş zəruri sənəd və məlumatlarla yanaşı KH-nın açılması və/və ya Ödəniş kartının buraxılması zamanı, habelə KH-nın mövcud olduğu dövr ərzində Kart saxlayıcısının/Əlavə kart saxlayıcısının əlavə eyniləşdirilməsi və verifikasiyası və ya KH üzrə aparılan hər-hansı Əməliyyatın məqsədinin və mahiyyətinin, habelə KH-da olan vəsaitlərin mənbəyinin aydınlaşdırılması üçün əlavə məlumatın əldə edilməsinə zərurət yarandıqda, ƏL/TMM qanunvericiliyinin, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun, digər normativ (o cümlədən Bankın daxili normativ aktlarının) və normativ xarakterli aktların tələblərinə riayət edilməsi məqsədilə Kart saxlayıcısından/Əlavə kart saxlayıcısından digər məlumatların və sənədlərin təqdim edilməsini tələb etmək. Əməliyyatın cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması (çirkli pulların yuyulması), yaxud terrorçuluğun maliyyələşdirilməsi məqsədilə aparılmasına dair şübhələr yarandıqda, habelə bu yarımbəndə müvafiq olaraq Bankın tələb etdiyi müvafiq məlumat və sənədlər Kart saxlayıcısı/Əlavə kart saxlayıcısı tərəfindən təqdim edilmədikdə, Bank Kart saxlayıcısının/Əlavə kart saxlayıcısının müvafiq Əməliyyatın aparılmasına dair sərəncamın icrasından imtina edə və/və ya KH üzrə buraxılmış bütün Kartları bloklaşdıra bilər. Bu halda Bank təxirəsalınmadan Kart saxlayıcısını/Əlavə Kart saxlayıcısını məlumatlandırır;

3.2.13. Əl/TMM qanununda göstərilən hallarda maliyyə monitorinqi orqanının qərarı əsasında Kart saxlayıcısının KH-sı üzrə Əməliyyatların icrasını dayandırmaq, "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanununda nəzərdə tutulmuş əsaslar mövcud olduqda isə KH-dakı vəsaitləri dondurmaq;

3.2.14. Kart saxlayıcısının təqdim etdiyi Anket və ya digər mənbələrdən əldə edilən məlumatlar əsasında KH-nın ABŞ-ın və ya Çoxtərəfli Razılaşmanı imzalayan dövlətlərin hesabat verilməli hesabı olduğu müəyyən edilərsə, müvafiq dövlətlərarası müqavilədə/sazişdə nəzərdə tutulan məlumatları həmin sənədlərlə müəyyənləşdirilən qaydada səlahiyyətli dövlət orqanına ötürmək;

3.2.15. Kart saxlayıcısı bu Müqavilənin 3.4.2-ci yarımbəndində göstərilən sənədlərin doldurulmasından və ya Banka təqdim edilməsindən boyun qaçırdıqda Kart saxlayıcısına KH-nın açılmasından imtina etmək;

3.2.16. Kart saxlayıcısından bu Müqavilənin 3.3.12-ci yarımbəndində nəzərdə tutulmuş bildirişi və ya bu Müqavilənin 9.4-1-ci bəndində nəzərdə tutulmuş halda həmin bəndlə nəzərdə tutulmuş ərizəni aldığı andan bu Müqavilə üzrə Kart saxlayıcı(sı)(ları)na/Əlavə Kart saxlayıcı(sı)(ları)na buraxılmış bütün Ödəniş kartlarını bloklaşdırmaq;

3.2.16-1. Kart saxlayıcısı bu Müqavilənin 9.4-1-ci bəndində nəzərdə tutulmuş halda həmin bəndlə nəzərdə tutulmuş ərizə ilə Banka müraciət etdikdə, Müqaviləyə tam və ya qismən xitam verilməsi müddətinin qısaldılmasından Kart saxlayıcısına imtina etmək;

3.2.17. Bankın nəzərdə tutduğu əlaqə kanalları (o cümlədən SMS mesajlar, Push mesajlar növündə) ilə Kart saxlayıcısına reklam və/və ya məlumat xarakterli mesajlar (o cümlədən Kartdan istifadə etməklə icazə verilməmiş əməliyyatların aparılmasının qarşısının alınması, xidmət səviyyəsinin qaldırılması üçün) göndərmək. Bankın Tarifləri ilə nəzərdə tutulduğu hallar istisna olmaqla bu cür mesajların göndərilməsinə görə Kart saxlayıcısından xidmət haqqı tutulmur.

3.3. **Kart saxlayıcısı aşağıdakı hüquqlara malikdir:**

3.3.1. KH-da yerləşdirilmiş pul vəsaitini yalnız Ödəniş kartı üzrə hesablaşmaların aparılması, yəni Ödəniş kartlarını ödəniş üçün qəbul edən ticarət-xidmət müəssisələrində, o cümlədən internet şəbəkəsi vasitəsilə malların, işlərin və xidmətlərin ödənilməsi, habelə Müqavilənin 4.6-cı bəndində müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla Bankda, bankomatlarda və Azərbaycan Respublikasının ərazisində və xaricdə bu növdə Ödəniş kartlarına xidmət göstərən Nağd vəsaitlərin verilməsi məntəqələrində nağd pul vəsaitinin alınması üçün istifadə etmək;

3.3.2. Ödəniş kartından istifadə edilməsi qaydalarına və şərtlərinə dair Bankdan məsləhətlər almaq;

3.3.3. Bu Müqavilə ilə nəzərdə tutulmuş qaydada Ödəniş kartından istifadə etməklə aparılmış əməliyyatlar barədə Bankdan məlumat almaq, o cümlədən Kart saxlayıcısının Banka etdiyi müraciət əsasında ayda bir dəfə təqvim ayı ərzində aparılmış Əməliyyatlara dair pulsuz KH üzrə Çıxarışı almaq;

3.3.4. Kart saxlayıcısının Kartdan istifadə etməklə əməliyyatının icrası tarixindən 6 (altı) ay müddətindən gec olmayaraq həmin Əməliyyatı mübahisələndirmək. Qeyd edilən müddətdə Banka mübahisələndirilən Əməliyyat üzrə yazılı pretenziya verilmədikdə, həmin Əməliyyatın düzgünlüyü təsdiq olunmuş hesab edilir və bu Əməliyyat sonradan mübahisələndirilə bilməz;

3.3.5. KH-də olan pul vəsaitini Müqavilənin 4.6-cı bəndində, habelə Ödəniş kartlarının ayrı-ayrı növlərinin buraxılması və onlara xidmət göstərilməsi şərtlərinin xüsusiyyətlərini müəyyən edən bu Müqavilənin müvafiq Əlavələrində göstərilmiş məhdudiyyətlər nəzərə alınmaqla nağd və ya köçürmə yolu ilə artırmaq;

3.3.6. Bu Müqavilənin 4.8-ci bəndinə müvafiq olaraq Bankın Tariflərində müəyyən edilmiş limitlər çərçivəsində Kartdan istifadə etməklə aparılan əməliyyatlar üzrə limitləri müstəqil şəkildə "XalqOnline" internet/mobil bankinq tətbiqində dəyişdirmək və ya bunun üçün Bankın Çağrı mərkəzinə

müraciət etmək, Bankın Tariflərində müəyyən edilmiş limitləri artırmaq və ya ləğv etmək üçün isə Banka yazılı şəkildə müraciət etmək (Əlavə № 8);

3.3.7. Ödəniş kartının və ya Kart əsaslı ödəniş alətinin itirilməsi, oğurlanması, onlardan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə olunması, Kartın mexaniki zədələnməsi və ya onun qüvvədə olma müddətinin bitməsi, Kart saxlayıcısının adının və/və ya soyadının dəyişilməsi (Kartın üzərində göstərildikdə) ilə əlaqədar olaraq Ödəniş kartının yenidən buraxılması haqqında Banka yazılı ərizə (doldurulmalı olan məlumatın xarakterindən asılı olaraq Müqaviləyə Əlavə № 1-də və ya Əlavə № 6-da nəzərdə tutulmuş forma üzrə) təqdim etmək, ŞEN-kodun (çap edildiyi halda) itirilməsi, oğurlanması və ya unudulması ilə əlaqədar olaraq (i) əvvəlcədən ŞEN-kodun ləğv edilməsi xidmətindən istifadə etmək şərtilə qüvvədə olan Kart üzrə Banka məxsus bankomat və ya Bankın internet şəbəkəsində www.xalqbank.az ünvanında yerləşən sayt vasitəsilə və ya (ii) "XalqOnline" internet/mobil bankinq tətbiqi vasitəsilə qüvvədə olan Kart üzrə yeni ŞEN-kodu yaratmaq;

3.3.8. Ödəniş kartlarının ayrı-ayrı növlərinin buraxılması və onlara xidmət göstərilməsi şərtlərinin xüsusiyyətlərini müəyyən edən bu Müqavilənin müvafiq Əlavələrində başqası nəzərdə tutulmadıqda öz adına və ya Kart saxlayıcısının etibarlı hesab etdiyi fiziki şəxsin adına Əlavə kartın buraxılması haqqında Banka yazılı ərizə (Əlavə №2) ilə müraciət etmək. Bu müraciətə Bank tərəfindən müsbət şəkildə baxıldığı təqdirdə Bank Əsas kart Saxlayıcısına və ya onun göstərdiyi şəxsə istifadə etmək üçün Əlavə kart təqdim edir. Əlavə kartdan istifadə etməklə aparılmış Əməliyyatlar üzrə bütün silinmələr, o cümlədən Bankın bu Əməliyyatlarla bağlı xidmətlərinin ödənilməsi Əsas kart üzrə KH-dan həyata keçirilir. Əlavə kartdan istifadə etməklə KH üzrə aparılmış bütün Əməliyyatlara görə məsuliyyəti KH-nın sahibi daşıyır.

3.3.9. Əlavə kartdan istifadə etməklə KH-da olan vəsaitlərə sərəncam vermək hüququna məhdudiyyətlər qoymaq;

3.3.10. Banka müvafiq yazılı ərizə təqdim etməklə Əlavə kartın qüvvəsinə xitam vermək;

3.3.11. Əsas kart və/və ya Əlavə kart və ya Kart əsaslı ödəniş aləti itirildikdə, oğurlandıqda və ya onlardan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə edildikdə, o cumlədən İnternet şəbəkəsi vasitəsilə malların (xidmətlərin, işlərin) satınalınması üzrə Kartın rekvizitlərindən istifadə etməklə Əməliyyatların aparılması nəticəsində Kartın rekvizitlərinin üçüncü şəxslərə açıqlanması barədə Kart saxlayıcısının şübhələri yarandıqda, Kartı əvvəlcədən müstəqil şəkildə "XalqOnline" internet/mobil bankinq tətbiqində bloklaşdırmaq (bu bloklaşdırma Kart saxlayıcısı tərəfindən "XalqOnline" internet/mobil bankinq tətbiqində ləğv oluna bildiyi üçün müvəqqəti sayılır) və onun ləğv olunmaqla tam bloklaşdırılması üçün Banka Qaydalarla nəzərdə tutulmuş üsullardan hər-hansı biri ilə müraciət etmək və ya (o cümlədən "XalqOnline" internet/mobil bankinq tətbiqi Kart saxlayıcısının mobil telefonunda/digər qurğusunda olmadıqda və ya işləmədikdə) yuxarıda qeyd edilmiş hallarla bağlı Kartın ləğv olunmaqla tam bloklaşdırılması üçün yuxarıda qeyd edilmiş qaydada Banka müraciət etmək;

3.3.12. Bu Müqavilə üzrə Kart saxlayıcısının Bank qarşısında maliyyə öhdəliklərinin olmaması şərtilə Müqavilənin ehtimal edilən ləğv etmə tarixinə 30 (otuz) gün qalmış Bankı yazılı şəkildə xəbərdar etməklə bu Müqaviləni birtərəfli qaydada ləğv etmək;

3.3.12-1. Bu Müqavilənin 9.4-1-ci bəndində nəzərdə tutulmuş halda və qaydada Müqaviləyə daha qısa müddətdə, lakin onun ehtimal edilən tam və ya qismən xitam edilməsi tarixindən ən azı 5 (beş) iş günü əvvəl tam və ya qismən xitam verilməsi xahişi ilə Banka müraciət etmək;

3.3.13. KH üzrə pul vəsaitlərin hərəkətinə nəzarət etmə və aparılmış Əməliyyatlar barədə məlumatlandırma ilə bağlı Bankın "XalqOnline" internet/mobil banking tətbiqinin və/ və ya SMS-məlumatlandırma xidmətlərindən, həmin xidmət(lər)ə görə Bankın Tarifləri ilə nəzərdə tutulmuş xidmət haqqını Banka ödəməklə istifadə etmək. Bankın "XalqOnline" internet/mobil banking tətbiqinə və SMS-məlumatlandırma xidmətinə qoşulma və onlardan istifadə qaydaları ilə Kart saxlayıcısı Bankın internet şəbəkəsində olan www.xalqbank.az saytında tanış ola bilər.

3.3.14. 3D Secure texnologiyasını dəstəkləyən internet səhifələrdə Ödəniş kartından istifadə etməklə əməliyyatların həyata keçirilməsi zamanı baş verə biləcək fırıldaqçılıq hallarının qarşısının alınması məqsədilə Ödəniş kartını **3D Secure** xidmətindən istifadə etmək üçün qeydiyyatdan keçirmək. Bu zaman nəzərə alınmalıdır ki, 3D Secure texnologiyasını dəstəkləyən internet səhifələrdə Əməliyyat aparılan zaman 3D Secure parolu daxil edilmədiyi və ya düzgün daxil edilmədiyi təqdirdə Əməliyyat həyata keçirilməyəcəkdir.

3D Secure xidmətindən istifadə qaydaları ilə www.xalqbank.az internet səhifəsi/linki vasitəsilə tanış olmaq mümkündür.

3.4. **Kart saxlayıcısı aşağıdakıları öz öhdəsinə götürür:**

3.4.1. Bu Müqavilənin bağlanması üçün Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin və Bankın daxili normativ aktlarının tələblərinə müvafiq olaraq Banka KH-nın açılması üçün zəruri olan sənədləri, Qoşulma və/və ya Ödəniş kartının buraxılması haqqında Ərizəni və özü barəsində düzgün olan məlumatları təqdim etmək, Bankın Tarifləri ilə nəzərdə tutulduğu halda müvafiq məbləğləri (bank komissiyalarını, KH-ya ilkin haqqın məbləğini, sığorta məbləğini) ödəmək;

3.4.2. Müqavilənin 2.11-ci bəndində göstərilən Anketi və Anketin cavablandırılmasının nəticələrinə əsasən vergi məqsədləri üçün ABŞ rezidenti və ya vətəndaşı olması müəyyən edildikdə, ABŞ vergi ödəyicisinin nömrəsini əks etdirən IRS W-9 formasını, ABŞ şəxsi olmadıqda isə IRS W-8 BEN formasını müvafiq bəndlər üzrə tam və müfəssəl məlumatlar daxil etməklə doldurmaq və həmin sənədləri kağız daşıyıcıda öz əl imzası ilə təsdiq etməklə Banka təqdim etmək;

3.4.3. Müqavilənin bağlanması tarixindən etibarən hər 3 (üç) ildən bir dəfə Anketi və IRS W-8 BEN formasını (ABŞ rezidenti və ya vətəndaşı statusuna malik olmadıqda) Müqavilənin 3.4.2-ci yarımbəndində göstərilmiş qaydada dolduraraq Banka təqdim etmək;

3.4.4. Şəxsi məlumatlar, ünvanlar, telefon nömrələri də daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq, Banka Kart saxlayıcısının/Əlavə kart saxlayıcısının eyniləşdirilməsi və verifikasiyası çərçivəsində təqdim edilmiş məlumatlarda dəyişikliklər baş verdikdə, bu dəyişikliklərin baş verməsindən keçən 5 (beş) iş günü ərzində onların baş verməsi faktını təsdiq edən müvafiq sənədləri əlavə etməklə bu barədə Bankı yazılı şəkildə xəbərdar etmək;

3.4.5. SMS-məlumatlandırma xidmətinin göstərilməsi, 3D Secure parolunun alınması üçün istifadə olunan mobil telefon nömrəsi dəyişdirildikdə, bu nömrənin quraşdırıldığı mobil telefon/digər qurğu itirildikdə bu barədə dərhal Banka məlumat vermək;

3.4.6. Ödəniş kartını və onun rekvizitlərini üçüncü şəxslərə verməmək, ŞEN-kodu, Məxfi sözü, 3D Secure parolunu digər şəxslərdən gizli saxlamaq. Heç bir halda ŞEN-kodun, 3D Secure parolunun o cümlədən Bankın əməkdaşlarına açıqlanmasına yol verməmək, Məxfi sözdən yalnız Müqavilədə nəzərdə tutulmuş hallarda istifadə etmək.

Yuxarıda göstərilən tələblərə əməl edilməməsi Ödəniş kartından istifadə etməklə icazəsiz hər-hansı əməliyyatların aparılmasına görə hər-hansı məsuliyyətdən Bankı azad edir, çünki, Kart saxlayıcısı tərəfindən bu Müqavilənin 3.3.11-ci yarımbəndinə müvafiq olaraq Banka Kartın bloklaşdırılması barədə edilmiş müraciətdən və ya Kartın müstəqil şəkildə bloklaşdırılmasından (bundan sonra ləngimədən Banka Kartın ləğv olunmaqla tam bloklaşdırılması barədə müraciətin edilməsi şərtilə) sonra Kartdan istifadə etməklə aparılmış əməliyyatlar üzrə Kart saxlayıcısının məsuliyyətinin/riskinin yaranmaması halı istisna olmaqla, bu tələblərə əməl olunmaması hallarında Ödəniş kartından və müvafiq ŞEN-koddan və ya 3D Secure parolundan istifadə etməklə aparılmış Əməliyyatlar Kart saxlayıcısı tərəfindən aparılmış hesab olunur və mübahisə oluna bilməz;

3.4.7. KH-da vəsaitlərin qalığına müstəqil nəzarət etmək, Ödəniş kartından istifadə etməklə əməliyyatları, həmin əməliyyatların həyata keçirilməsinə görə Bank tərəfindən tutulacaq bank komissiyalarının məbləğlərini nəzərə almaqla KH-da olan pul vəsaiti həddində həyata keçirmək, cari hesabında olan sığorta məbləğinin (Bankın Tarifləri ilə nəzərdə tutulduğu halda) azalmasına yol verməmək. KH üzrə overdraft təqdim edilmir;

3.4.8. Cari hesabında olan sığorta məbləğinin (Bankın Tarifləri ilə nəzərdə tutulduğu halda) azalmasından keçən 3 (üç) iş günü müddətindən gec olmayaraq sığorta məbləğini Bankın Tarifləri ilə nəzərdə tutulmuş məbləğə qədər artırmaq;

3.4.9. Ödəniş kartından istifadə etməklə aparılmış bütün əməliyyatları, Bankın Tariflərinə müvafiq olaraq bank komissiyalarını, dəbbə pulunu və Bankın Ödəniş kartlarına xidmət göstərilməsi ilə bağlı çəkdiyi bütün xərclərini ödəmək.

3.4.10. Texniki overdraft baş verdiyi təqdirdə, Texniki overdraft üzrə yaranmış borcu və Bankın Tariflərinə müvafiq olaraq dəbbə pulunu 3 (üç) iş günü müddətində Banka ödəmək;

3.4.11. Kartlardan istifadə etməklə aparılmış əməliyyatlar üzrə bütün sənədləri, müvafiq əməliyyatın aparılması tarixindən 6 (altı) ay ərzində saxlamaq və mübahisəli məsələlərin həlli və ya Ödəniş kartından istifadə etməklə aparılmış əməliyyatların qanuniliyinin təsdiqi üçün onları Banka ilk tələb üzrə Bank tərəfindən müəyyən edilmiş müddətlərdə təqdim etmək;

3.4.12. Ödəniş kartının və ya Kart əsaslı ödəniş alətinin itirilməsinin, oğurlanmasının, Kartın zədələnməsinin və onlardan, habelə ŞEN-koddan, 3D Secure parolundan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadənin qarşısının alınması üçün bütün mümkün olan tədbirləri görmək;

3.4.13. Kart və ya Kart əsaslı ödəniş aləti itirildikdə, oğurlandıqda və ya onlardan icazəsiz (səlahiyyəti olmayan şəxs tərəfindən) istifadə edildikdə bu barədə Kartı bloklaşdırmaq məqsədilə Bankı dərhal Qaydalarla nəzərdə tutulmuş üsullardan hər hansı biri (bu zaman həmin üsullardan ən operativ və əlçatan olandan istifadə etməklə) ilə xəbərdar etmək. Kartın və ya Kart əsaslı ödəniş alətinin itirilməsi (oğurlanması və s.) haqqında məlumatın Banka verilməsi anına, "XalqOnline" internet/mobil bankinq tətbiqində Kart əvvəlcə bloklaşdırıldıqda isə bu cür bloklaşdırma anına (bundan sonra ləngimədən Banka Kartın ləğv olunmaqla tam bloklaşdırılması barədə müraciətin edilməsi şərtilə) qədər Kartdan və ya Kart əsaslı ödəniş alətindən istifadə edilməsinə görə bütün maliyyə məsuliyyəti və risklər Kart saxlayıcısının üzərinə düşür;

3.4.14. İnternet şəbəkəsi vasitəsilə malların satın alınması, xidmət və işlərin dəyərinin ödənilməsi üçün Kartın rekvizitlərindən istifadə etməklə 3D Secure texnologiyasını dəstəkləyən internet saytlarında aparılmış və 3D Secure parolu ilə təsdiqlənməmiş bütün Əməliyyatlar üzrə maliyyə risklərini və məsuliyyəti müstəqil şəkildə daşımaq;

3.4.15. Kartın, ŞEN-kodun, Kartın rekvizitlərinin üçüncü şəxslərə verilməsi nəticəsində baş vermiş fırıldaqçılıq hadisələrinə görə, habelə Kart saxlayıcısı, Əlavə Kart saxlayıcısı tərəfindən digər hallarda bu Müqavilənin yerinə yetirilməməsi və ya lazımı qaydada yerinə yetirilməməsi nəticəsində Banka dəymiş zərərin, Bank tərəfindən çəkilmiş xərclərin (o cümlədən Ödəniş sistemi və ya üçüncü şəxslər tərəfindən Banka qarşı irəli sürülmüş maliyyə tələblərinin) tam məbləğini Banka ödəmək;

3.4.16. Əvvəl itirilmiş və ya oğurlanmış kimi elan edilən Ödəniş kartı və ya bu Karta bağlı olan Kart əsaslı ödəniş aləti tapıldığı təqdirdə, Kart saxlayıcısı bu barədə Banka dərhal məlumat verməli və tapılmış Kartı dərhal Banka qaytarmalıdır.

3.4.17. KH üzrə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı (Ödəniş kartının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə fərdi sahibkar üçün buraxıldığı hal istisna olmaqla) və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini pozmaqla Əməliyyatları aparmamaq və onların aparılmasına icazə verməmək;

3.4.18. Bu Müqaviləyə, onun Əlavələrinə, o cümlədən Qaydalara və bu Müqavilənin 2.9-cu bəndində qeyd edilmiş normativ (xarakterli) aktlara riayət etmək, habelə Kart saxlayıcısının Banka müraciəti əsasında Əlavə Kartları alan şəxslər (Əlavə kart saxlayıcıları) tərəfindən onlara riayət olunmasını təmin etmək;

3.4.19. Bu Müqaviləyə, onun Əlavələrinə, o cümlədən Qaydalara və Bankın Tariflərinə edilən və Bankın ofisində (ofislərində) informasiya lövhələrində və ya Bankın WEB-səhifəsində yerləşdirimiş dəyişikliklərlə müstəqil şəkildə tanış olmaq;

3.4.20. Əlavə kart saxlayıcılarını bu Müqavilənin şərtləri ilə tanış etmək və bu Müqavilənin icrası zamanı onların hərəkətlərinə görə məsuliyyət daşımaq;

3.4.21. Ödəniş kartının qüvvədə olduğu müddətin bitməsindən sonra 5 (beş) bank günü ərzində, habelə bu Müqavilə ilə nəzərdə tutulmuş digər hallarda Kartı Banka qaytarmaq.

3.4.22. Kartların təhvil verilməsindən və /və ya bu Müqaviləyə xitam verilməsindən sonra, Kartdan istifadə etməklə əməliyyatlar üzrə Bankın müxbir hesabından silinmiş məbləğlərin əvəzini Bankdan müvafiq tələbi aldığı andan 3 (üç) gün müddətindən gec olmayaraq Banka ödəmək.

## 4. Kart Hesabının rejimi

4.1. Kart saxlayıcısı bu Müqavilənin, onun müvafiq Əlavələrinin şərtləri, o cümlədən Qaydalar və Bankın Tarifləri ilə tanış olduqdan sonra Ödəniş kartından istifadə etməklə aparılan əməliyyatların uçotu üçün KH-nın açılması məqsədilə Banka bu Müqavilə ilə nəzərdə tutulmuş qaydada Qoşulma və/və ya Ödəniş kartının buraxılması haqqında Ərizəni və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi və Bankın daxili normativ aktları ilə tələb olunan sənədləri təqdim edir.

4.2. Hər bir KH-nın valyutası Kart saxlayıcısı tərəfindən bu Müqavilənin şərtlərinə müvafiq olaraq Qoşulma və/və ya Ödəniş kartının buraxılması haqqında Ərizədə göstərilir.

4.3. Kart saxlayıcısına KH(lar) Bank tərəfindən Ərizə(n)(lər)in aksept edilməsi gündə açılır. Ödəniş kartı Kart saxlayıcısına bu Müqavilənin 3.1.1-ci yarımbəndində nəzərdə tutulmuş müddətdə təqdim edilir.

4.4. Bank Kart saxlayıcısının KH-sında olan pul vəsaitlərinin istifadə edilməsi istiqamətlərini müəyyənləşdirmir və buna nəzarət etmir. Qanunla və ya bu Müqavilə ilə nəzərdə tutulmuş hallar istisna olmaqla Bank Kart saxlayıcısının KH-sında olan pul vəsaitləri üzərində sərəncam vermək hüququnu məhdudlaşdıra bilməz.

4.5. Bu Müqavilənin 4.6-cı bəndində müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla KH-ya Bankın kassası, Banka və ya digər rezident banklara məxsus bankomatlar vasitəsilə daxil edilən nağd pul vəsaiti və qüvvədə olan qanunvericiliyə əməl olunmaqla nağdsız qaydada Kart saxlayıcısının xeyrinə köçürülmüş pul vəsaiti mədaxil edilir.

4.6. Kart saxlayıcısına GBP valyutasında KH açıldıqda Bankın kassası vasitəsilə, habelə Banka məxsus bankomatlarda və Nağd vəsaitlərin verilməsi məntəqələrində GBP valyutasında KH-ya/KH-dan nağd vəsaitlərin mədaxil/məxaric edilməsi üzrə əməliyyatların aparılmasına icazə verilmir.

Bankın kassası vasitəsilə, habelə Banka məxsus bankomatlarda və Nağd vəsaitlərin verilməsi məntəqələrində GBP valyutasında olan KH-ya/KH-dan pul vəsaitlərin nağd qaydada mədaxil/məxaric edilməsi AZN, USD və EUR valyutalarının GBP valyutasına əməliyyatın keçirildiyi günə Bankın müəyyən etdiyi məzənnəsi ilə həmin valyutalardan biri ilə həyata keçirilir. Banka məxsus bankomatlarda və Nağd vəsaaitlərin verilməsi məntəqələrində GBP valyutasında olan KH-ya/KH-dan pul vəsaitlərinin USD və/və ya EUR valyutalarında nağd qaydada mədaxil (bankomat bu funksiyanı dəstəklədikdə) / məxaric edilməsi imkanı Bank tərəfindən müvafiq bankomat(lar) və Nağd vəsaitlərin verilməsi məntəqələri vasitəsilə müştərilərə həmin valyutalarda nağd əməliyyatlarının aparılması üzrə xidmətlərin göstərilib-göstərilməməsindən asılıdır.

4.7. KH-da olan pul vəsaiti yalnız Ödəniş kartından istifadə etməklə əməliyyatlar üzrə hesablaşmaların aparılması üçün istifadə olunur.

4.8. Kartdan istifadə etməklə əməliyyatların aparılması zamanı təhlükəsizliyi təmin etmək məqsədilə Bank tərəfindən Bankın Tariflərində Kartların növündən asılı olaraq bir Kart üzrə gün ərzində aparılan əməliyyatların məbləğinə limitlər müəyyən edilir.

4.9. Bununla Kart saxlayıcı təsdiq edir və razılaşır ki, Kart(lar) vasitəsilə müəyyən limit həddində ŞEN-kod daxil edilmədən əməliyyatların aparılmasının mümkünlüyü ona məlumdur və Bank tərəfindən qeyd edilən müvafiq limitin maksimal həddi qanunvericiliyin müddəalarına uyğun olaraq birtərəfli qaydada dəyişdirilə bilər.

Üzərində xüsusi simvol (bir qayda olaraq qrafik təsviri) olan Kart(lar) vasitəsilə müəyyən olunmuş limitlər həddində aparılan təmassız ödəniş Əməliyyatları Kartın Kart saxlayıcısı tərəfindən bu Əməliyyatları dəstəkləyən POS-terminallara yaxınlaşdırılması yolu ilə həyata keçirilir.

Belə Əməliyyatların limiti barədə aktual məlumat Kart saxlayıcısı tərəfindən Bankın www.xalqbank.az internet səhifəsi vasitəsilə əldə edilə bilər.

4.10. KH üzrə məxaric əməliyyatları, qüvvədə olan qanunvericiliklə və ya bu Müqavilə ilə nəzərdə tutumuş hallar, habelə Bankın Tarifləri ilə nəzərdə tutulmuş ödəmələr istisna olmaqla, yalnız Ödəniş kartından istifadə etməklə elektron qaydada tərtib edilmiş Kart saxlayıcısının sərəncamları əsasında həyata keçirilir.

4.11. KH-dan pul vəsaitlərinin köçürülməsi haqqında Kart saxlayıcısının sərəncamları Banka əməliyyat günü (əməliyyat günün davamlığı Bank tərəfindən müstəqil şəkildə müəyyən edilir) ərzində daxil olduqda Bank həmin lazımı qaydada tərtib edilmiş sərəncamı, onun daxıl olmasından və Bank tərəfindən icraya qəbul edilməsindən sonra eyni gündə icra edir. Kart saxlayıcısından Bankın əməliyyat gününun başa çatmasından sonra (əməliyyat vaxtından sonra) daxil olmuş sərəncamlar növbəti əməliyyat günü icraya qəbul edilmiş sayılır.

Ödəniş limitinin köçürmə məbləğinə azaldılması Bank tərəfindən Prosessinq mərkəzindən Ödəniş kartından silinmək üçün vəsaitlərin kifayət olması barədə əldə olunmuş məlumatlar əsasında köçürmənin icrasından əvvəl Kart saxlayısından müvafiq sərəncamın daxil olduğu gündə həyata keçirilir. Ödəniş limitinin azaldılması üçün kifayət edən məbləğ KH-da olmadıqda Kart saxlayıcısının sərəncamı icraya qəbul edilmir və ləğv edilir.

4.12. Ödəniş kartından istifadə etməklə mal, iş və xidmətlərin ödənilməsi, nağd pul vəsaitlərin alınması zamanı, o cümlədən Ödəniş sisteminin qaydalarına müvafiq olaraq qabaqcadan avtorizasiya aparılmadan ödəmənin mümkün olduğu ödənişlər üzrə Bank pul vəsaitlərin məbləğlərini Prosessinq mərkəzindən alınmış məlumatlar (ödənişlərin reyestri) əsasında silir.

Bu bəndin birinci abzasında göstərilmiş məbləğlərin silinməsi üçün KH-da kifayət edən vəsait qalığı olmadıqda, çatışmayan məbləğ Bank tərəfindən Texniki overdraft kimi uçota alınır.

4.13. Banka məxsus olmayan bankomatlarda və digər elektron qurğularda nağd pul vəsaiti çıxarıldıqda, Bankın komissiyasına (Bankın Tariflərinə müvafiq olaraq) əlavə olaraq KH-dan bankomatın və ya digər elektron qurğunun sahibi olan bankın komissiyası tutula bilər.

4.14. ƏL/TMM qanunvericiliyinin tətbiqi ilə bağlı Banka daha çox vaxt tələb olunmadıqda, Kart saxlayıcısının KH-sına nağdsız qaydada daxil olmuş pul vəsaitləri Bank tərəfindən eyni əməliyyat günü bu hesaba mədaxil edilir. KH-ya mədaxil edilməli pul vəsaitlərinin valyutası KH-nın valyutasından fərqli olduqda Bank tərəfindən pul vəsaitlərinin KH-nın valyutasında hesaba mədaxil edilməsi bu pul vəsaitlərin Kart saxlayıcısı üçün Banka daxil olduğu gündən növbəti 3 (üç) iş günündən gec olmayaraq həyata keçirilir bu şərtlə ki, bu müddətə daxil olan sonuncu iş günü pul vəsaitlərinin valyutasının mənşə ölkəsində də iş günü sayılır.

ƏL/TMM qanunvericiliyinin tətbiqi ilə bağlı Banka daha çox vaxt tələb olunmadıqda, Banka daxil olmuş nağd pul vəsaitləri, onların Bankın kassasına (o cümlədən Banka məxsus bankomat və ya Nağd vəsaitlərin verilməsi məntəqələri vasitəsilə) daxil edildiyi gündə KH-ya mədaxil edilir.

4.15. KH-nın valyutasından fərqli valyutada KH-nın nağdsız və ya nağd qaydada möhkəmləndirilməsi əməliyyatı həyata keçirildikdə Kart saxlayıcısı əlavə sərəncam vermədən Bankın Tarifləri ilə nəzərdə tutulmuş şərtlərlə və Bankın müəyyən etdiyi məzənnə ilə pul vəsaitlərinin konvertasiya edilməsini Banka tapşırır.

4.16. MasterCard və Visa Kartından və ya onun rekvizitlərindən istifadə etməklə məxaric əməliyyatı AZN/ USD/ EUR/ GBP valyutalarından fərqli valyutada həyata keçirildikdə, belə valyuta müvafiq Beynəlxalq Ödəniş sistemi tərəfindən həmin Sistemin müəyyən etdiyi məzənnə və qayda ilə hesablaşma valyutasına konvertasiya edilir.

Kartdan və ya onun rekvizitlərindən istifadə etməklə məxaric Əməliyyatının valyutası və ya bu Əməliyyat üzrə yuxarıda qeyd edilən halda müvafiq Sistemlə hesablaşmanın valyutası KH-nın valyutasından fərqli olduqda, məxaric Əməliyyatının valyutasının və ya bu Əməliyyat üzrə müvafiq Sistemlə hesablaşma valyutasının KH-nın valyutasına konvertasiyası KH-dan pul vəsaitlərinin silinməsi tarixinə Bankın müəyyən etdiyi məzənnə ilə həyata keçirilir. Bu zaman KH-dan pul vəsaitlərinin silinməsi tarixi Kart saxlayıcısının Kartdan və ya onun rekvizitlərindən istifadə etməklə apardığı məxaric Əməliyyatının tarixindən bir neçə iş gününə fərqlənə bilər. Bu səbəbdən yaranmış məzənnə fərqi Kart saxlayıcısı tərəfindən Banka qarşı pretenziya predmeti ola bilməz.

4.17. Ödəniş kartlarının ayrı-ayrı növlərinin buraxılması və onlara xidmət göstərilməsi şərtlərinin xüsusiyyətlərini müəyyən edən bu Müqavilənin

müvafiq Əlavələri ilə başqası nəzərdə tutulmadıqda KH-da olan pul vəsaitinin qalığına Bank tərəfindən faizlər hesablanmır.

4.18. Bu Müqavilənin 9.4-1-ci bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, KH-nın bağlanması və bu Müqavilənin 4.6-cı bəndində GBP valyutasında olan KH-dan nağd vəsaitlərin məxaric edilməsi üzrə müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla KH-da olan vəsait qalığının Kart saxlayıcısına qaytarılması, sonuncu tərəfindən Banka müvafiq yazılı ərizənin təqdim edildiyi gündən 30 (otuz) gün keçdikdən sonra həyata keçirilir. Kart saxlayıcısı bu ərizəyə həmin KH üzrə verilmiş bütün Kartları əlavə etməlidir. KH-nın bağlanması haqqında yazılı ərizənin təqdim edildiyi gündən Bank həmin KH üzrə buraxılmış bütün Ödəniş kartlarını bloklaşdırır. Bank həmin KH üzrə Ödəniş kartlarını bloklaşdırdığı tarixdən 33 (otuz üç) gün keçənə qədər həmin KH-da olan vəsait qalığını Kart saxlayıcısına verməkdən imtina etmək hüququna malikdir.

Bu Müqavilənin 9.4-1-ci bəndində nəzərdə tutulmuş halda Bank Kart saxlayıcısının ərizədə göstərdiyi müddətdə Müqaviləni tam və ya qismən ləğv etdiyi təqdirdə Kart saxlayıcısının KH-sında olan vəsait qalığı Müqavilənin tam və qismən ləğv edildiyi tarixdə Kart saxlayıcısına qaytarılır.

## 5. Kartlardan istifadə etməklə aparılmış əməliyyatlar barədə Bank tərəfindən məlumatlandırma qaydası

5.1. Kartlardan istifadə etməklə aparılmış əməliyyatlar barədə məlumatlandırma Bank tərəfindən aşağıdakı üsullarla həyata keçirilir:

5.1.1. Kart saxlayıcısının/Əlavə kart saxlayıcısının Ərizədə /Əlavə Ödəniş kartının buraxılması haqqında ərizədə və ya bu Müqaviləyə Əlavə № 7 nəzərdə tutulmuş forma üzrə tərtib edilmiş ərizədə göstərdiyi mobil telefon nömrəsinə SMS-mesajla bildirişin göndərilməsi yolu ilə. Bu zaman Bankın Kart saxlayıcısını/Əlavə kart saxlayıcısını məlumatlandırmaq vəzifəsi həmin bildirişin müvafiq rabitə təşkilatına təqdim edildiyi andan icra olunmuş sayılır;

5.1.2. Kart saxlayıcısının Banka şəxsən müraciət etdiyi zaman aparılmış Əməliyyatlara dair KH üzrə Çıxarışın sonuncuya təqdim edilməsi yolu ilə. Bu zaman Bankın Kart saxlayıcısını məlumatlandırmaq vəzifəsi sonuncunun Banka müraciət etdiyi iş günündə Bank tərəfindən tərtib edilmiş Çıxarışın Kart saxlayıcısına təhvil verilməsi anından icra olunmuş sayılır.

## 6. Tərəflərin məsuliyyəti

6.1. Tərəflər bu Müqavilə ilə üzərilərnə götürdükləri öhdəliklərin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə bu Müqavilənin müddəalarına və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyırlar.

6.2. Bank, onun nəzarət sahəsindən kənarda olan və ödəniş, hesablaşma, məlumatların işlənməsi və göndərilməsi sistemlərində baş vermiş texniki nasazlıqlarla bağlı olan vəziyyətlərə görə, habelə təşkilatların, bankların Kart saxlayıcısına Kartdan istifadə etməklə xidmətin göstərilməsindən imtina edilməsi hallarında məsuliyyət daşımır.

6.3. Bank oğurlanmış, itirilmiş Kart və ya səlahiyyəti olmayan üçüncü şəxs tərəfindən Kart üzrə ŞEN-kodun daxil edilməsini və ya Kart saxlayıcısı tərəfindən çekin imzalanmasını tələb etməyən Əməliyyatın aparılmasına görə Kart saxlayıcısı qarşısında aşağıdakı bütün şərtlər mövcud olduqda məsuliyyət daşımır:

- Kart saxlayıcısından yuxarıda qeyd edilmiş Əməliyyat barədə qanunvericiliklə müəyyən edilmiş müddətdə məlumatın əldə edilməsindən sonra Bank həmin Əməliyyatın baş verməsində təqsirinin olmaması barədə qanunvericiliklə nəzərdə tutulmuş sübutları müvafiq qanunvericiliklə müəyyən edilmiş müddətlərdə Kart saxlayıcısına təqdim etmişdir;
- Kart saxlayıcısının bu Əməliyyat üzrə zərəri (itkiləri) 100 (yüz) manat və ya xarici valyutada 100 (yüz) manat ekvivalentində olan məbləğindən artıq deyil.

6.4. Kart saxlayıcısı Kartdan/Əlavə kartdan istifadə etməklə aparılmış bütün əməliyyatlara, habelə Kartdan/Əlavə kartdan istifadə etməklə aparılan bütün ödənişlərə görə Bankla bu Müqaviləyə müvafiq olaraq bütün hesablaşmaların tamamlanmasına qədər Bank qarşısında tam malliyə məsuliyyətini daşıyır.

6.5. Tərəflər bu Müqavilə üzrə öhdəliklərinin tam və ya qismən icra edilməməsinə görə məsuliyyətdən o vaxt azad olunurlar ki, bu icra etməmə Tərəflərin iradəsindən asılı olmayan, əvvəlcədən görə bilmədikləri və təsirinə mane ola bilmədikləri Müqavilənin bağlanmasından sonra yaranmış qarşısıalınmaz qüvvə hallarının təsirindən əmələ gəlmiş olsun. Bu cür hallara telekommunikasiya xətlərində ümumi xarakter daşıyan qəza dayanmaları, daşqın, zəlzələ, yanğın, yer sürüşməsi və digər təbii fəlakətlər, müharibə və hərbi əməliyyatlar, kütləvi iğtişaşlar, Tərəflərin münasibətlərini bilavasitə dəyişdirən qanunvericilikdə dəyişikliklər, dövlət orqanlarının və ya ödəniş sistemlərinin bu Müqavilənin icrasının mümkünsüzlüyünə səbəb olan hərəkətləri və ya qəbul etdikləri aktları aiddir.

6.6. Bu Müqavilənin 6.5-ci bəndində göstərilmiş hallar baş verdiyi təqdirdə, bu halların təsiri nəticəsində öz öhdəliklərini icra etmək tam və ya qismən iqtidarında olmayan Tərəf bu hallar barədə digər Tərəfə ləngimədən yazılı şəkildə bildiriş göndərməyi öhdəsinə götürür. Bildirişdə bu halların xüsusiyyətləri haqqında məlumatlar və, mümkün olduğu halda, bu halların Tərəfin bu Müqavilə üzrə öhdəliklərinin icrasının mümkünlüyünə təsir göstərməsinin qiymətləndirilməsi və öhdəliklərin icra müddəti öz əksini tapmalıdır.

6.7. Fors-major halların mövcudluğunun və təsir müddətinin sübutu kimi səlahiyyətli dövlət və ya digər təşkilat tərəfindən verilən sənədlər çıxış edir.

## 7. Müqavilənin qanunvericiliyi və mübahisələrin həlli qaydası

7.1. Bu Müqavilə Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində tərtib edilmiş və təsir göstərir.

7.2. Bu Müqavilədən və ya onunla əlaqədar yaranan bütün münaqişələr, fikir ayrılıqları və tələblər, o cümlədən də onun icrasına, pozulmasına, ona xitam verilməsinə və ya qeyri-həqiqiliyinə aid olanlar Tərəflər arasında danışıqların aparılması yolu ilə, danışıqlar nəticəsində kompromisə gələ bilmədikləri halda isə məhkəmə qaydasında Azərbaycan Respublikasının aidiyyəti məhkəmələrində həll edilməlidir.

## 8. KH-da olan vəsaitlərin sığortalanması

8.1. Bank «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikasının 29.12.2006-cı il tarixli 226–İİİQ №-li qanununa (bundan sonra «Qanun» adlandırılacaq) müvafiq olaraq fiziki şəxslərin əmanətlərinin kollektiv icbari sığortası sisteminin və bu məqsədlə yaradılmış Əmanətlərin Sığortalanması Fondunun 30.07.2007-ci il tarixdən iştirakçısıdır (Şəhadətnamə № 1). Kart saxlayıcısının KH-(lar)da olan pul vəsaiti (bu bəndin və Müqavilənin 16 №-li Əlavəsinin məqsədləri üçün «əmanət» adlandırılacaq) qeyd edilən Qanunla müəyyən edilmiş qaydada, miqdarda və şərtlərlə sığortalanır.

Əmanətlərin sığortalanması, qorunan əmanətlər üzrə kompensasiyaların ödənilməsi şərtləri və qaydası, Fondun fəaliyyəti ilə bağlı elanların verildiyi və bildirişlərin dərc edildiyi kütləvi informasiya vasitələri haqqında məlumat bu Müqavilənin 16 №-li Əlavəsində qeyd edilir.

## 9. Müqavilənin müddəti və ona xitam verilməsi qaydası

9.1. Bu Müqavilə Bank tərəfindən Kart saxlayıcısının Ərizəsinin aksept edilməsi tarixindən qüvvəyə minir və ona xitam verilməsinə (onun ləğv edilməsinə) qədər öz qüvvəsini saxlayır.

9.2. Bu Müqavilənin 9.3-cü bəndinin müddəalarına riayət etmək şərtilə Kart saxlayıcısı Banka Müqavilənin ləğv edilməsi və/və ya KH-(n)(lar)ın bağlanması haqqında yazılı ərizəni (Müqaviləyə Əlavə № 9) təqdim etməklə bu Müqaviləyə istənilən vaxt tam və ya qismən xitam verə bilər. Kart saxlayıcısı tərəfindən təqdim edilən ərizədə bu Müqavilə üzrə Bankın xidmət göstərdiyi bütün KH-ların bağlanması tələb olunmadıqda Müqavilə Kart saxlayıcısının ərizəsində göstərilən KH-(y)(lar)a münasibətdə xitam edilməklə Kart saxlayıcısının digər KH-(sı)(ları)na münasibətdə öz qüvvəsini saxlayır. Ərizə kağız daşıyıcıda Kart saxlayıcısının öz əl imzası ilə imzalanmaqla Banka təqdim edilir.

9.3. Kart saxlayıcısı Müqavilənin 9.2-ci bəndində qeyd edilmiş ərizəni Müqaviləyə tam və ya qismən xitam verilməsinin ehtimal olunan tarixinə 30 (otuz) gün qalmış Banka təqdim etməli və həmin ərizəyə bağlanan KH(-lar) üzrə verilmiş bütün Kartları əlavə etməlidir. Ərizənin təqdim edilməsi tarixi kimi həmin ərizənin Bank tərəfindən qəbul edilməsi tarixi hesab olunur.

Bu zaman Müqavilənin ləğv edilməsi və/və ya KH-(n)(lar)ın bağlanması haqqında yazılı ərizənin təqdim edildiyi gündən Bank bu Müqavilə üzrə buraxılmış müvafiq olaraq bütün Ödəniş kartlarını və ya bağlanan KH-(y)(lar)a aid olan Ödəniş kartlarını bloklaşdırır.

9.4. Bu Müqavilənin 9.2-ci bəndində qeyd edilmiş ərizənin təqdim edilməsi tarixindən 30 (otuz) gün ərzində Bank həmin ərizənin təqdim edilməsi tarixinə (daxil olmaqla) qədər aparılmış əməliyyatlar üzrə hesablaşmaları həyata keçirir, habelə KH-(lar)da olan pul vəsaitlərini Kart saxlayıcısının bu Müqavilə üzrə Bank qarşısında olan borclarının ödənilməsi üçün istifadə edir. Hesablaşmaların aparılması və/və ya Müqavilə üzrə borcun ödənilməsi üçün KH-(lar)da kifayət qədər pul vəsaiti olmadıqda Kart saxlayıcısı Müqaviləyə tam və ya qismən xitam verilməsi tarixinə qədər çatışmayan məbləği KH-(y)(lar)a mədaxil etməlidir.

9.4.-1. Müstəsna hallarda, Kart saxlayıcısı daha qısa müddətdə (bu zaman həmin müddət Müqaviləyə tam və ya qismən xitam verilməsinin ehtimal olunan tarixinə qədər 5 (beş) iş günündən az ola bilməz) Müqaviləyə tam və ya qismən xitam verilməsi üçün bu Müqavilənin 9.2-ci bəndində qeyd edilmiş ərizə ilə Banka müraciət etdikdə, Bank Kartlardan istifadə etməklə əməliyyatların uçotu üçün istifadə etdiyi müvafiq proqram təminatında Kart saxlayıcısının hesablaşmalar başa çatdırılmadığı Əməliyyatları barədə məlumat olmadığı təqdirdə, sonuncunun ərizəsində göstərilmiş müddətdə Müqaviləni tam və ya qismən ləğv edə bilər.

Bu bəndin birinci abzasında geyd edilmiş halda Bank 9.3-cü bəndinin ikinci abzasında nəzərdə tutulmuş tədbirləri analoji qaydada tətbiq edir.

9.5. Bağlanan KH-(lar)da olan vəsaitin qalığı (mövcud olduqda) bu Müqaviləyə tam və ya qismən xitam verildiyi tarixdən 4 (dörd) günündən, bu Müqavilənin 9.4-1-ci bəndində nəzərdə tutulmuş halda isə Müqaviləyə tam və ya qismən xitam verildiyi tarixdən gec olmayaraq Kart saxlayıcısının ərizədə verdiyi göstərişə uyğun olaraq müvafiq hesaba köçürülməklə və ya Bankın kassası vasitəsilə nağd qaydada Kart saxlayıcısına qaytarılır və ya Bankın gəlirinə silinir.

9.6. Texniki overdraft üzrə ödənilməmiş borc mövcud olduqda bu hissədə Müqavilənin şərtləri Kart saxlayıcısı tərəfindən texniki overdraft üzrə borcun ödənilməsi öhdəliklərinin tam icra edilməsinə qədər öz qüvvəsini saxlayır. Bank bu halda Kart saxlayıcısına şəxsən və ya Kart saxlayıcısının Banka məlum olan sonuncu qeydiyyat (yaşayış) və/və ya elektron poçt ünvanı üzrə poçtla və/və ya elektron poçtla göndərməklə Kart saxlayıcısı tərəfindən borcun ödənilməsi üçün rekvizitləri əks etdirən məlumat təqdim edir.

9.7. Bank və Kart saxlayıcısı bununla razılığa gəldilər ki, aşağıdakı şərtlər eyni vaxtda mövcud olduqda Müqavilə Kart saxlayıcısı tərəfindən Banka bu Müqavilənin 9.2-ci bəndində nəzərdə tutulmuş ərizə ilə müraciət edilmədən müvafiq olaraq tam və ya qismən (müvafiq KH-(y)(lar)a münasibətdə) xitam edilmiş sayılır:

- Müqavilə üzrə Kart saxlayıcısının borcu olmadıqda;
- KH-(lar)da pul vəsaiti olmadıqda;
- Əsas kart(lar)ın qüvvədə olma müddətinin bitməsindən 33 (otuz üç) gün keçdikdə Kart saxlayıcısı isə həmin Ödəniş kart(lar)ının yenidən buraxılması barədə Banka müvafiq ərizə(lər) ilə müraciət etmədikdə.

Müqavilə bu bəndlə nəzərdə tutulmuş şərtlərlə müvafiq Ödəniş kartının qüvvədə olma müddətinin bitməsindən keçən 34 (otuz dördüncü) gündə müvafiq olaraq tam və ya qismən (müvafiq KH-(y)(lar)a münasibətdə) xitam edilmiş sayılır.

9.8. Bu Müqaviləyə 9.7-ci bəndində müəyyən edilmiş əsaslarla müvafiq olaraq tam və ya qismən xitam verilməsi ehtimalı yarandıqda Bank Müqaviləyə tam və ya qismən xitam verilməsi tarixinə ən azı 30 (otuz) gün qalmış bu barədə Kart saxlayıcısına, onun Banka məlum olan sonuncu qeydiyyat (yaşayış) və ya elektron poçt ünvanı üzrə və ya Kart saxlayıcısı SMS-məlumatlandırma xidmətinə qoşulduğu halda onun müvafiq mobil telefon nömrəsinə müvafiq xəbərdarlıq göndərir.

9.9. Bu Müqaviləyə tam və ya qismən (müvafiq KH-(y)(lar)a münasibətdə) xitam verildiyi halda, Müqavilə üzrə verilmiş müvafiq olaraq bütün və ya bağlanan KH-(y)(lar)a aid olan Kart(lar) Kart saxlayıcısı tərəfindən Banka qaytarılmalıdır.

9.10. Bu Müqaviləyə, qanunvericiliklə və bu Müqavilə ilə nəzərdə tutulmuş digər hallarda da xitam verilə bilər.

9.11. Bu Müqaviləyə tam və ya qismən xitam verilməsi müvafiq olaraq bütün və ya bu Müqavilənin 9.2-ci və 9.7-ci bəndlərində nəzərdə tutulmuş müvafiq KH-ların bağlanması üçün əsasdır.

9.12. Bu Müqaviləyə tam və ya qismən xitam verildiyi təqdirdə müvafiq Kart(lar)ın əldə edilməsinə görə xidmət haqqı geri qaytarılmır.

**10. Yekun müddəalar**

10.1. Bununla Kart saxlayıcısı həm Bank, həm də üçüncü şəxslər tərəfindən Kart saxlayıcısına bu Müqavilədən irəli gələn və/və ya onunla bağlı olan xidmətlərin göstərilməsi, yeni növ xidmət və məhsulların təqdim edilməsi, məlumatların emalı, statistik hesabatların hazırlanması, risklərin idarə edilməsi məqsədilə Kart saxlayıcısına aid fərdi məlumatların (ad,soyad, ata adı, mobil və stasionar telefon nömrələri, elektron poçt ünvanı, doğum tarixi, şəxsiyyət vəsiqəsinin məlumatları, Müqavilədən irəli gələn öhdəliklərin icrası və/və ya yuxarıda qeyd edilən xidmətlərin göstərilməsi üçün tələb olunan digər məlumatlar) Bank tərəfindən toplanılmasına və işlənilməsinə (avtomatlaşdırılmış işlənmə də daxil olmaqla fərdi məlumatların yazılması, saxlanması, sistemləşdirilməsi, dəqiqləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, istifadəsi, üçüncü şəxslərə ötürülməsi (o cümlədən transsərhəd ötürülməsi), çıxarılması, adsızlaşdırılması, bloklaşdırılması və məhv edilməsi), habelə Bank və üçüncü şəxslər tərəfindən müxtəlif kommunikasiya vasitələri ilə onunla əlaqə saxlanılmasına razılıq verir. Bu bəndin məqsədləri üçün üçüncü şəxslər deyildikdə, qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə, həmçinin xidmətlərin göstərilməsi məqsədilə Bank ilə bağlanmış müqavilələrə əsasən belə məlumatı əldə etmək hüququna malik şəxslər başa düşülür).

Qeyd edilən razılıq Müqavilənin qüvvədə olma müddəti ərzində, həmçinin Müqavilənin müddətinin bitdiyi tarixdən 5 (beş) il ərzində qüvvədə olur. Bu müddət bitdikdən sonra fərdi məlumatlar qanunvericiliklə müəyyən olunmuş qaydada məhv edilir və ya arxivləşdirilir.

10.2. Kart saxlayıcısı aşağıdakı hallarda lazımı qaydada məlumatlandırılmış sayılır: korrespondensiya Banka məlum olan Kart saxlayıcısının sonuncu qeydiyyat (yaşayış) ünvanı üzrə göndərildikdə; korrespondensiya Kart saxlayıcısına şəxsən verildikdə, habelə Kart saxlayıcısının Ərizədə (Əlavə № 1) və ya bu Müqavilənin 3.4.4-cü yarımbəndinə müvafiq olaraq Banka təqdim etdiyi yazılı xəbərdarlıqda göstərdiyi elektron poçt ünvanına, Müqavilədə nəzərdə tutulmuş hallarda isə Kart saxlayıcısının müvafiq ərizədə (təqdim edilmə tarixinə görə sonuncu olan Əlavə № 1-də və ya Əlavə № 7-də nəzərdə tutulmuş forma üzrə tərtib edilmiş ərizədə) göstərdiyi mobil telefon nömrəsinə SMS məlumatlandırma xidməti vasitəsilə məlumat göndərildikdə.

Bank aşağıdakı hallarda lazımı qaydada məlumatlandırılmış sayılır: bu Müqavilə ilə nəzərdə tutulmuş hallarda Kart saxlayıcısı tərəfindən yazılı şəkildə təqdim edilən ərizələr kağız daşıyıcıda rəsmiləşdirməklə Banka və ya onun filiallarından birinə olduğu yer üzrə təqdim edildikdə; bu Müqavilə ilə nəzərdə tutulmuş hallarda Kart saxlayıcısı tərəfindən Banka telefon vasitəsilə şifahi göstərişlər verildikdə bu şərtlə ki, Kart saxlayıcısı tərəfindən Məxfi söz və onun eyniləşdirilməsi üçün digər zəruri olan məlumatlar düzgün göstərilsin.

10.3. Bu Müqaviləyə olan Əlavələr onun ayrılmaz tərkib hissəsini təşkil edir.

10.4. Bu Müqavilədə nəzərdə tutulmuş şərtlərdən Ödəniş kartlarının ayrı-ayrı növlərinin buraxılması və onlara xidmət göstərilməsi şərtlərinin xüsusiyyətlərini müəyyən edən bu Müqavilənin müvafiq Əlavələrində fərqli şərtlər müəyyən edildikdə, habelə bu Müqavilənin müddəaları ilə yuxarıda qeyd edilmiş Əlavələrin müddəaları arasında ziddiyətlər və ya hər-hansı uyğunsuzluqlar mövcud olduqda Ödəniş kartlarının ayrı-ayrı növlərinin buraxılması və onlara xidmət göstərilməsi şərtlərinin xüsusiyyətlərini müəyyən edən Əlavələrin müddəaları üstün hüquqi qüvvəyə malikdir.